Azad AZƏRBAYCAN

19 oktyabr 2023- cü il № 34



*Ziya BÜNYADOV - 100*

# O, bu qələbəni görmək arzusu ilə yaşayırdı



Sovet İttifaqı Qəhrəmanı, tanınmış şərqşünas alim-tədqiqatçı Akademik Ziya Bünyadov haqqında məktəb illərindən çox eşitmişdik. Bakıda ali təhsil aldığım müddətdə, habelə komsomol, partiya, icra orqanlarında məsul vəzifələrdə işlədiyim dövrlərdə paytaxtımızda dəfələrlə məktəblilərlə və tələbələrlə, habelə gənclərlə bu təşkilatların rəhbərlərindən biri kimi iştirak etdiyim görüşlərdə onun coşqun və cəlbedici çıxışlarına acgözlükdə dərindən qulaq asırdım. Mətbuat səhifələrində və ki-

## (Xatirələrim)

tablarda eşitmədiyimiz və rast gəlmədiyimiz dövlətçiliyimizə, onun ərazi bütövlüyünə hansı maraqlardandsa Moskva Dağlıq Qarabağ barədə rəhbərliyi və erməni himayədarları tərəfindən təcavüz edilməsi, mövcüd olmayan Ermənistanın yuxarılara quyruq bulaması və saxtakarlığı, türkofobiya və sairə iyrənc əməlləri ilə dünyada tanınan haylara, həmçinin bu əməllərlə və ikiüzlülüklə Qarabağda məcburən yerləşdirilən ermənilərə Xalqımızın üreyiyumşaqlığı nəticəsində xeyli torpaq bəxşiş edilib. İrandan, Türkiyədən, Rusiyadan və digər ölkələrdən gəlmə ermənilər və məcburi köçürülmələr hesabına SSRİ dövründə Azərbaycanın tərkibində hətta regionlarımızın əksərindən yüksək büdcə təminatı, qayğı və sosial yaşam tərzi keçmiş Dağlıq Qarabağda daha yaxşı olmuşdur. Muxtariyyət formasında təşkil edilən bu Qordiyev düyünü illər boyu beynəlxalq ali təşkilatların belə Ermənistanın və "Dağlıq Qarabağ Respublikasının" bir çox ölkələrə ərazi iddiası, təəsüf ki, sonrakı illərdə qanunsuz erməni hərbi birləşmələri ilə ərazilərimizdə etnik təmizləmə aparmaqla Qərbi Azərbaycandan və Ermənistandan xeyli soydaşlarımızı deportasiya etdilər. Vəhşiliklə, xüsusi işgəncələrlə görülməmiş soyqurmlar törətdilər. Nə yaxşı ki, 30 ilə yaxın müddətdə haqqımızı xeyli yubadılmasına baxmayaraq məsələnin həllinin gələcəyə saxlanılmasının qarşısı vaxtında alındı. Heç bir dövlətin tanımadığı, hətta Ermənistanın özünün də tanımadığı keçmiş oyununa DQM ərazisində şəhər, qəsəbə və kəndlərimizin işğalına qarşı ölkə başçımız və Ali Baş Komandan Cənab İlham Əliyevin 20 illik Azərbaycana rəhbərliyi dövründə düzgün aparılmış qətiyyətli diplomatik, hərbi-siyasi və möhkəm iradəsi ilə ərazi bütövlüyümüz və müstəqilliyimiz tamamilə təmin edildi. Dağlıq Qarabağ (qanunsuz rejim bir az da irəli gedərək Artsax adlandırılmışdı) terrorçuları, qanunsuz hərbi birləşmələri əzəli torpaqlarımızda yerləşdirməklə, buralarda minalar basdırmaqla, xalqımız sülhə can atsa da, məkrli düşmən separat hərbi xuntanın başbilənləri Azərbaycanda ağır beynəlxalq ağır cinayətlər törətdiklərinə görə indi istintaqa cəlb ediliblər.

Beləliklə, lokal əks-terror tədbirləri ilə təhlükəsizliyimiz və ərazi bütövlüyümüz tam bərpa olundu. İndi isə cinayyətkarlar əməllərini etiraf etsələr də, yenədə göz yaşları ilə yalvar-yaxar edir, hardasa yenə də köhnə dayılarından imdad gözləyirlər. Qoy gözləsinlər, dənizdən-dənizə başqa qonşu ölkələrə də əsassız ərazi iddiasında olan Ermənistan dövlətinin belə əməlləri ucbatından tarixi sənədlər dönə-dönə araşdırıldıqdan sonra beynəlxalq məhkəmələrdə qanunsuz tələbləri ilə insanlığa yaraşmayan vəhşiliklərini örtbasdır etməyə çalışırlar. Ermənistan monomillət ölkəsi olaraq əhalisinin çoxunun başqa yerlərə üz tutmalarının, ölkəmizə dəymiş külli miqdarda maddi-mənəvi ziyana görə təzminat ödəyəcəyinə, borc hesabına və səfalət içində çabalayan əhalisi dilənçi vəziyyətdə yaşadığından başqa ölkələrə köç edən Ermənistanın acı aqibətinin gec-tez bir daha şahidi olacağımıza şübhə etmirik.

Bəli, BMT-nin, digər beynəlxalq qurumların işğalçılara bu səbəblərdən öz yerini təkidlə göstərməməsi, qəbul edilmiş qərar və qətnamələrin icrasının yerinə yetirilməməsi xeyli uzadılıb, çünki çoxları ikili standart mövqeyi tutur. Son günlərdə Şuşada və ətraf ərazilərdən başqa Xankəndində Dövlət Bayrağımızın dalğalanması qürurvericidir.

Bu yaxınlarda Azərbaycan Respublikasının Prezidentinin sərəncamı ilə Ermənistan və Qarabağın, Azərbaycanımızın tarixinə dair fundamental araşdırmaların fəal tədqiqatçısı Akademik Ziya Bünyadovun 100 illik yubleyinin keçirilməsi ilə bağlı sərəncam imzalanmışdır.

Yaxşı yadımdadır, 1994-cü ilin qışında Masallıda İcra hakimiyyəti başçısının muavini vəzifəsində işləyərkən bu maraqlı insan və alim həyat yoldaşı Tahirə xanımla Astara şəhərinə təntənəli yubiley tədbirinə gedərkən yolüstü rayon rəhbərliyi ilə görüş keçirildi. Ertəsi günü doğulduğu Astara şəhərində görüşə tələsirdi. Mən yubilyara təbrik məktubu hazırladım. 1-ci Qarabağ müharibəsinin əvvəldən RİH nəzində yaradılmış "QƏLƏBƏ" fondu tərəfindən döyüş bölgələrinə getməklə cəbhəyə yardım göstərilməsi, döyüşçülərin və şəhidlərin, yaralılara, hərbi hissələrə və bölgələrə yardımların göstərilməsi daim diqqət mərkəzində idi. Fondun Əsasnaməsinə uyğun olaraq düşmənin hərbi texnikasını və canlı qüvvəsini məhv edən, hücumları cəsurluqla dəhf edən fərqlənənlərə bir milyon rubl məbləğində pul mükafatı və diplom verilməsi, digər həvəsləndirmə tədbirləri də nəzərdə tutulmuşdu. Astarada keçirilən yubiley gecəsində hələ təbrik məktubunun, hədiyyə, gül dəstəsi və sairə məsələri dilə gətirməmişdən İH başçısından və yubilyardan icazə alaraq giriş etdim ki, bizlər və çox ölkələrdə Ziya müəllimi görkəmli araşdırıcı alim, cəsur və pirinsipial şəxsiyyət, millətin böyük təəssübkeşi kimi tanıyırlar. O, illərdir tarixi faktlarla və sənədlərlə ermənilərin uzaqvuran top mərmisi kimi güclü söz silahı hesabına atəş açır. İnanırıq ki, xalqımızın başına gətirilən soyqırımlar, deportasiyalar, ərazilərin işğal edilməsi, Qərbi Azərbaycanda, Ermənistanda və Qarabağda illər boyu yaşamış sakinlərimizə işgəncələr verərək doğma yurdlarından didərgin salmışlar. Bu qısa çıxışımdan sonra yubilyara təbrik məktubunu oxuyub "Qələbə fondunun" mükafatlarını hörmətli alimimiz və şərq, şunas tədqiqatçı Akademikimizə təqdim etdik.

Bu günlərdə ölkə başçımız Ali Baş Komandan cənab İlham Əliyevin Prezidentliyinin 20 ili tamam oldu. Ziya Bünyadov kimi tarixçi alimlərimizin, yazarlarımızın, digər tədqiqatçılarımızın məhz xidmətlərinədə rəğmən aparılan diplomatik, hərbi-siyasi strateji addımlar hesabına bu qələbələri möhtərəm ölkə başçımız bizlərə bəxş etdi. Xalqımız Vətənimizin beynəlxalq səviyyədə enerji təhlükəsizliyinin təmin edilməsi, Avropanın bir neçə ölkəsinə yanacaq ixrac etməsi, iqtisadiyyatımızın inkişafına və milli mənafelərimizə cavab verən əməkdaşlıq, investisiya əlaqələrinin qurulması, sair tədbirlər bir vətəndaş olaraq məni hədsiz sevindirir, bütün sahələrdə qazanılan uğurlarımızın daha da artmasına inamımı və fəxarət hissimi gündən-günə gücləndirir.



**Ələşrəf NİFTİYEV,**
**Azərbaycan Yazıçıları və Jurnalistləri Birliklərinin üzvü, Masallı rayon Ağsaqqallar Şurasının sədri**